

■ Filiz Geç

## ANAM GÜNƏŞ

Şəhəri yenidən inşa eləyirlər
Və qəfil uşaq oluram,
Və qəfil küçələrdə payız görünür,
Anamın əynində qalın jilet
Amma üşüyür
Paltarının Ətəyinə yığıb sapsarı buğda dənələrini
Və günəşin isti sifətindən ruh alır dağınıq saçları.

Kölgəsinə çatmamış kəsirəm barmaqlarımı,
Barmaqlarım uzun, barmaqlarım qısa,
Küt bıçaq, paslı səhənglə
Qonşu qapısındayam.
Pıçıltılar ağızlardan qopub düşür,
Dəhlizin sönmüş lampasına toxunub.

Mənə inanın, mənə inanın, mənə inanın
İnanın, bilmirəm, hansı yaşdayam.
Nifrətim toxunmaz bu saf eşqimə.
Məsum deyil sirrimi ifşa edən qaranlıq,
Və sabaha sığınmaq gecənin şərindən qaçıb
İnanın, inanın.
Sizə bir ayə qədər uzağam.

Şəhəri yenidən inşa edirlər,
Və heç kim soruşmur,
Və heç kim soruşmur
Evimizi harada tikəcəyik?
Evin balaca qızıyam deyə
Qədəmlərimi yığırlar həyətdən.

Anam günəş kimi isti,
İsinmir evin divarları
Niyə isinmir evin divarları?
Və anam qalın jileti ilə üşüyür
Günəş kimi isti anam.
Evin balaca qızıyam deyə
Əvvəl ağladırlar,
sonra silirlər göz yaşımı.

Qədəmlərim qaranlıqda gizlənir,
Evin damından ulduzlara ucalır dualar,
Buxar kimi
Ulduzlar buna görə düşür həyətimizə.
Və əlimin yanmamağı
Və anamın  günəş kimi isti
Qalın jaketi əynində
Günəşi salamlayır

## KÜLƏYİN KÖKÜNDƏN QOPARDIĞI AĞAC

*Bir Fələstin var idi,*
*Hələ də bir Fələstin var*

***Mahmud Dərviş***

İndi hər şeyə sənin kimi baxmalıyam,
Sənin kimi qaçan ayaqlarıma ilişib yıxılaraq.
Və sən sifətimə qısılıb baxmalısan mənə,
Nazik bir tel üstündən uçub
Pəncərəyə toxunanda göyərçinlər
paltarlardan, şarlardan
Çağırmalısan küləyi.

Nə fəryad, nə fəğan,
Ancaq ulu bir şairin
mübariz ağzından çıxa bilər
Müqəddəs ayələr.

İndi gözlərini bağlayıb
Bilmirəm neçənci yuxuda
Yağışı gözləyir,
Selahattinlərin oyanmağını gözləyir
Və çiyinlərində Abdülhəmidin duası.
Qalxmır qollarım, qalxmır,
Yorğunluqdan qırılıb yanıma düşüb,
Qaçdığımı düşünərək qaçıram.
Xəyalın sərhədində qısılır barmaqlarım
Hamı kimi hamıdan qaçaraq.

Necə silinər?
Dirsəydimdəki döyüş yarası,
Daş atıram və hər dəfə bir az da bükülürəm
Küləyin kökündən qopardığı ağac kimi
Baş rolda deyilsiniz,
Amma baş roldaymış kimi qaçırsınız,
Nəfəs dərmədən.

## KÖLGƏLƏR

Onsuz da gördüyümüz eyni səma deyil ki!
Nə baxdığım yol yaxın, nə buludlar öz yerində.
Soyuq və kefsiz simalar, tanış olmayan küçə.
Yeridiyim yol belə məni tanımır, niyə?

Başımdakı sarğı da kəsmir, ağrımı kəsmir!
İstəyirsən sər yerə, qurut, yarpağı qurut!
Külək özüyçün əsir.

Paltarının ətəyi toxunan torpaq
Bir danışsam quşların qanadsız olmadığın,
Üstümdə dünəndən qalan bu cür ağırlıq
Qalxsam, töküləcək.
Dağıdılan hər evin yerində bir kölgə böyüyür.




## AĞIR

Çiynimdə böyüyür bir nəhəng meşə -
Yavaş-yavaş.
Tökür yarpaqlarını o qəşəng meşə -
Yavaş-yavaş
Keçib gedəcəyəm qarşılarından
Yavaş-yavaş
Hansı sabahın mühasirəsi,
Hansı baharın davasıyam mən,
Çəpərlərlə örtülür şəhər,
Məni, duman yox, çən boğur.
Yavaş-yavaş
Nəfəsimi tuturam,
Bütün nəfəslərin yerinə
Yavaş-yavaş
Məhkəməm hansı küçədə qurular?
Hansı dayanacaqdayam mən?

## GEDƏRKƏN

Sən saçlarını yığ,
Başqa şəhərə köçürük indi.
Yığ saçlarını!
Bir uşaq yoxuşu qalxır
Və bu an
Kim oynada bilər daşları yerindən?
Yaylığı açılmış şəhərin saçlarını yığ
Çılpaq ölülərimizi heç kim görməsin!

## OTAQ

Başaqların saralmağını gözləyirik,
Böyük, sarı otaqlarda.
Nəm saçları var yuxusuzların,
Nəm.
Və gecəni özünə gətirir bu saçlar.
Nəm saçlarla.
Biri oyun oynayır mavi otaqda,
Göyü yerə sərib
Üzündə milyonlarla çapıq.

## BETHOVEN

Bethoven pıçıldayır:
"Kar deyiləm".
Qaçır dayanmadan pəncərəmdən o yanda,
Qulağımda səslənən şirin uşaq səsləri,
Tuta bilmirəm səsi,
Tuta bilmirəm səsi,
Gücüm yoxdu tutmağa
Barmaqlarımdan asılıram.

Bədənimdə birləşir yığın-yığın kölgələr
Kəsirəm qaranlığı o ayın işığıyla,
Salmayın içinizə səsinizi
Partlayıb çıxacaq qulaqlarınızdan,
Ulu deyiləm
Sözlərinizi unudacağam
Və əllərimi yandıran əllərinizi.

## DİLƏNÇİ

Hər gecə
Haradasa bir dilənçi,
Öz köhnə-külə pencəyi ilə nimdaşlaşır,
Neçə əl dəydi əlinə?
Şalvar yamağından neçə əl keçdi?
Bu gün "Dilənmək" günüdür

Mənə inan,
Rəngim bənövşəyi deyil.
Nilufər tanımır məni,
Daş hər dəfə suya düşəndə
Mehtər islah olunur,
Və çayı xilas eləyir, yığıb cibinə

Hələ neçə nəfəs alqışlayacaqlar,
Bu küçələrə bu ritm sığmaz.
Gün göz qapaqlarıma yığılır,
Dilənçinin saçları uzanır.

Addımları tanımadı onu,
Şəhər göz-bəbəklərinin içində genişləndi,
Sizə gözlərinizi bağlamağınızmı söyləsəm,
Qaranlıqdan qorxursunuzmu deyim?

## TABLO

Bizim tərəflərdə külək uzun,
Evlər damsız
Ləyənlər otaqların ortasındadır,
Sonra ağ-qara artistlər süfrəmizdə görünür,
Həmişə eyni reklam,
Vird edilir,
Vird olunur dilində uşaqların.

Analar nağıl yaşadır ,
Xəyallarında böyüdürlər uşaqları
Sıxlığın ortasında,
ya torpaqdan xalının üzərində
Yuxusuz düzülüblər.

Şam işığında uzanır kölgələri.
Ağaclara dəyib qırılır.
Qarların arasında keçir
Uzaqlaşır evlərdən
Ayağının altında səs
Pat, pat, pat...

Daşlar düzüldükcə və ayaqlar islandıqca,
Dənizi hiss edirsən,
dənizdən uzaq
Ölməmişik hələ
Yuxudayıq
Torpaq ovcumuzda ağırlaşır
Yağışın harasından baxasan?

**Dilimizə uyğunlaşdıran:**
**Orxan Həsəni**